*12 dekabr—ümummilli lider Heydər Əliyevin anım günüdür*

# Onsuz–onunla keçən 10 il

Düz 10 il əvvəl—2003-cü ilin dekabr ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dünyasını dəyişərək əbədiyyətə qovuşdu. İslama görə böyük yaradanın insanları sınaq üçün göndərdiyi bu dünyada Heydər Əliyev şərəflə yaşadı, fəaliyyət göstərdi, bütün şüurlu həyatını xalqına, vətəninə həsr etdi. Heydər Əliyevin ən böyük arzusu Azərbaycanı müstəqil, inkişaf etmiş, güclü bir dövlət kimi görmək idi. O, bu arzusuna çatdı. 2003-cü ildə Azərbaycan artıq dönməz olan müstəqilliyə qovuşmuş, sürətlə inkişaf edən, gündən-günə güclənən, beynəlxalq aləmdə nüfuz qazanmış bir dövlətə çevrilmişdi.

Heydər Əliyevlə xalqın vida mərasimi Azərbaycan tarixində görünməmiş bir izdihamla keçdi. Onlarla dövlət rəhbərlərinin, beynəlxalq aləmdə tanınmış nüfuzlu siyasi və ictimai xadimlərin iştirak etdiyi vida mərasiminə qatılan əhalinin sayını milyonlarla ifadə etsək yanılmarıq.

Əhali sayına və ərazisinə görə kiçik sayılan Azərbaycan kimi bir dövlətin başçısına göstərilən bu ehtiram Heydər Əliyev şəxsiyyətinə verilən qiymət kimi dəyərləndirilməlidir.



Artıq on ildir ki, dahi rəhbər bizimlə deyil. Ancaq Heydər Əliyev elə böyük bir şəxsiyyət olmuşdur ki, onun ideyaları həmişə bizimlədir, ruhu başımızın üzərindədir. Heydər Əliyev kimi dahilər hələ sağ ikən özlərindən sonra da xalqının təhlükəsiz, firavan yaşaması yollarını düşünür və bütün zamanlarda fəaliyyət qabiliyyəti olan, köhnəlməyən irs qoyub gedirlər. Heydər Əliyev özündən sonra da Azərbaycanı zirvələrə aparacaq yolu müəyyənləşdirmiş, davamlı körpülərlə təmin etmişdi.

Əsas vəzifə ulu öndərin müəyyən etdiyi yolla xalqı apara biləcək liderin üzərinə düşürdü. Heydər Əliyev bu məsələdə də xalqını yalqız qoymadı.

Ulu öndər haqqın rəhmətinə qovuşmamışdan əvvəl, 2003-cü ilin oktyabr ayının 3-də Azərbaycan xalqına müraciət edərək ondan sonra Azərbaycana özü qədər inandığı, etimad etdiyi, layiqli varisi İlham Əliyevin liderlik etməsini arzuladığını və məsləhət bildiyini çatdırdı. Tarix göstərdi ki, bu seçim o dövrdə də, ondan sonra da ən doğru seçim olmuşdur. Heydər Əliyevin seçimi xalq tərəfindən rəğbətlə qarşılandı.

Qədirbilən xalqımız 2003-cü ilin oktyabrında keçirilən ölkə prezidenti seçkilərində ulu öndərin çağırışına uyğun olaraq Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyevi özünə lider seçdi.

O vaxtdan keçən 10 il ərzində Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin ideyalarının işığında möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən, sabit, güclü bir dövlətə çevrilmişdir.

Xalqın böyük dəstəyinə arxalanan ölkə Prezidenti dünyanın söz sahibi olan nəhəng dövlətlərin başçılarının da, beynəlxalq aləmdə tanınmış, nüfuzlu ictimai-siyasi xadimlərin də dərin rəğbətini qazanmışdır. Bu gün həmin siyasətçilər möhtərəm cənab İlham Əliyevi Azərbaycandakı sabitliyin, inkişafın, vətəndaş həmrəyliyinin, tolerantlığın qarantı kimi görürlər. Bunu növbəti dəfə ölkə Prezidenti seçilməsi münasibətilə cənab İlham Əliyevə ünvanlanmış yüzlərlə təbrik məktublarındakı səmimi sözlər bir daha sübut edir. Bu məktublarda istisnasız olaraq dünyanın bütün görkəmli siyasi və ictimai xadimləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə işləməyi özlərinə şərəf bildiklərini bəyan edirlər.

Bu ilin oktyabr ayında Azərbaycanda keçirilən Prezident seçkiləri ərəfəsində bir sıra xarici ölkələrin təsiri altında olan mətbuat orqanlarında nəşr olunan cənab İlham Əliyev haqqında şər və böhtan dolu cızma-qaralar istər xaricdə, istərsə də ölkə ictimaiyyəti tərəfindən nifrətlə qarşılandı və sabun köpüyü effekti bağışladı.

Müasir dünyamızda Azərbaycan Respublikası sabitliyin və sürətli inkişafın vəhdət şəkildə davam etdiyi çox az sayda ölkələrdən biridir. Ölkəmiz Heydər Əliyev ideyaları, İlham Əliyev təşkilatçılığı və bacarığı sayəsində dünyada baş verən siyasi və iqtisadi təlatümlərdən, böhranlardan yan keçərək daha yüksəklərə doğru inamla irəliləyir.

**Qüdrət SƏMƏDOV.**

# Əsrin dahisi

1923-cü il 10 may tarixində təbiətin nadir guşəsi olan bol-bərəkətli diyarda, gözəlliklərlə dolu, ərlər yurdu, igidlər məskəni, qədim ulu keçmişə malik Azərbaycanın ayrılmaz hissəsi, istedadlar ocağı Naxçıvanda bir körpə dünyaya gəldi. Heç kim bilmirdi ki, bu körpə bir ailə üçün deyil, bütövlükdə bir məmləkət, xalq, millət üçün doğulur. Heç kim bilmirdi ki, onun həyatı keşməkeşli, çətin, ağır olduğu qədər, bütöv bir millət üçün zəka, sönməz şölə saçan, xalqı qaranlıqlardan qurtaran bir günəş kimi parlaq olacaqdır. Ulu bir xalqın qarşısında milli-mənəvi dirçəliş yolunda, dünyada özünə və zəngin, qədim, mədəni irsə malik millətinə layiq geniş üfüqlər açacağını da heç kim bilmirdi. Olum ya ölüm dilemmasında qalmış xalqı müsibətdən, məhv olmaqdan, yer üzündən silinmək təhlükəsindən qurtarmaq, qəmə-kədərə qərq olmuş millətə qurub yaratmaq eşqi, həvəsi bəxş etmək də onun taleyinə yazılmışdır. Vətənin başı üstünü qara buludlar alanda xalqın taleyini öz taleyi kimi qəbul etmək, xalqı ağ günə, parlaq gələcəyə aparmaq, bu işdə qalibiyyət, zəfər, uğur əldə etmək də onun alın yazısı idi. Bu, tale yüklü, qəlbində iman atəşi yanan, vətənə, xalqa, torpağa bağlı, millətini təkcə bir vətəndaş səmimiyyəti ilə deyil, bir qayğıkeş ata kimi sevən, qoruyan görkəmli bir şəxsiyyət Heydər Əliyev idi.

1969-cu il iyulun 14-də ölkəyə rəhbər seçilən Heydər Əliyev xüsusi iş fəaliyyəti, əzmkarlığı və fədakarlığı ilə tarixdə yeni bir səhifə açdı. Heydər Əliyevin 1993-cü ilin 15 iyulunda yenidən Azərbaycana ali rəhbər vəzifəyə gəlişindən sonra normal həyat, əmin-amanlıq, sakitlik, dinclik, firavanlıq görünməyə başladı. Düşmənlərimiz də bildilər ki, bu xalqın başı üstündə qüdrətli bir dahi, qeyri-adi gücə, qüvvətə malik bir şəxsiyyət var. Azərbaycanı məhv olmaqdan, parçalanmaq təhlükəsindən qurtaran, öz həyatını, taleyini xalqın rifahı naminə fəda edən çox böyük bir siyasi sima olan Heydər Əliyev dəfələrlə daxili və xarici düşmənlərlə layiqli mübarizə aparmış, xalqın, vətənin taleyini ön plana çəkmişdir. Ümummilli lider hərtərəfli biliyi, aydın zəkası, sərrast mühakiməsilə həlli çətin olan məsələlərdə, bütün daxili və xarici siyasətdə elə bir əməli fəaliyyət yolu seçmişdir ki, bugünkü günümüzdə də özünəməxsusluğu ilə qabarıq şəkildə görünməkdədir. Hər bir insanın qiymətini bilmək, qiymətləndirmək, onu yüksək səviyyələrə qaldırmaq, öz işində qeyri-adi dözümü, yorulmazlığı, işgüzarlığı da biz onun timsalında çox aydın gördük. Heydər Əliyev heyrətamiz qətiyyəti, yenilməz iradəsi və hər cür çətin, mürəkkəb situasiyalardan çıxmaq bacarığı ilə dünya siyasətçiləri arasında ən yüksək pillədə yerini aldı.

Millətə, xalqa bağlılığın aydın nümunələrindən biri də 31 dekabrın—Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı kimi tarixə qovuşmasıdır. Dahi şəxsiyyətin xalqa sevgi və məhəbbətinə, qətiyyətinə, iradəsinə, xüsusi idarə etmək qabiliyyətinə görə «Atatürk Beynəlxalq Sülh Mükafatı»na layiq görülməsi də Azərbaycanın dünyada özünəməxsus yer tutmasını bir daha təsdiq etdi. Heyrətamiz qətiyyəti, milli xilaskarlığı və vətən, xalq uğrunda fədakarlığı haqlı olaraq deməyə imkan verir ki, Heydər Əliyev xalqın görən gözü, varlığı, ümidi, döyünən ürəyi idi.

Biz xoşbəxtik ki, Heydər Əliyev dövründə yaşamış, onun əməllərinin canlı şahidiləri olmuşuq. Gələcək nəsillərə iftixarla deyə bilərik ki, belə dahi ilə bir əsrdə yaşamışıq. 1978 və 2002-ci illərdə Qəbələyə iki dəfə səfəri onu göstərir ki, Heydər Əliyev həqiqətən də bütün regionların sosial-iqtisadi inkişafı ilə şəxsən tanış olmuş, hər bir sahədəki çatışmazlıqları qaydaya salmaq üçün yorulmadan və geniş fəaliyyət göstərmişdir. Qəbələ sakinləri Heydər Əliyevin səfərləri ilə bağlı gözəl, şirin xatirələrini bu gün indiki nəslə xüsusi bir seçilmiş mövzu kimi nəql edirlər.

Azərbaycan xalqını uğurlu gələcəyə aparan dühanın cismən bizdən ayrıldığı gün—12 dekabr 2003-cü il milli matəm günü kimi tarixə qovuşdu.Çünki millət böyük bir ağsaqqalını, el atasını itirdi. Lakin biz heç də ümidimizi qırmırıq. Ona görə ki, Heydər Əliyev kursunun layiqli davamçısı olan İlham Əliyev sülhün təminatçısı kimi yorulmaz və sarsılmaz qətiyyəti ilə Azərbaycan xalqını uğurlu gələcəyə aparır. Belə bir dahinin gərgin əməyinin bəhrəsi olan yeni müstəqil Azərbaycan onun qurub-yaratdığı yolla, uğurla irəliləyir və irəliləyəcəkdir. Bu çətin və şərəfli işdə hamılıqla İlham Əliyevə dəstək, onunla həmrəy olaraq Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycanı qoruyaq və bu yolda əlimizdən gələni əsirgəməyək.

**İlhamə SEYİDOVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi.**